Adımız məfkurəmizdir

№11 8 – 14 aprel 2025-ci il

Türküstan

www.turkustan.az



Elxan Zal Qaraxan

# Səmavi qurdun torunları

## (Elxan Zal Qaraxanın yeni yazdığı “Romanın Turan tarixi” əsərindən

(əvvəli ötən sayımızda)

*Herodotun mətnlərində Türk etnonimi yirk (Herodot, IV, 22), Pliniusda Tirk kimi qeyd olunub (Plinius, VI, 19). M. İ. Şafarik, E. Eyxvald, İ. Pototski, A. German, Z. İ. Yampolski, A. Krımski kimi görkəmli tədqiqatçılar Herodot və Pliniusun əsərlərində qeyd olunan yirk və tirk etnonimlərinin əlyazmaçılar (mirzələr) tərəfindən təhrif olunmuş turk\türk etnonimi olduğunu bildirirlər. Fəqət türk adlı xalqın ilk dəfə b. e. VI əsrində Uzaq Şərqdə tarix meydanına çıxması barədə xəbərlər bir elmi doqma olaraq kitabdan-kitaba, monoqrafiyadan-monoqrafiyaya köç edir.*

Yazılı mətnlərdə romalıların etrusklardan əxz etdiyi və Çin salnamələri “Bey şu” və “Suy şu” da verilən əhvalata bənzəyən əfsanənin müxtəlif variantları Roma salnamələrində də öz əksini tapıb. (məs. Titus Livius. “Ab urbe condita”, I, 6). Roma əhvalatının mahiyyəti odur ki, troyalı Eneyin nəslindən olan Reya Silvia savaş tanrısı Marsdan (bəzi mənbələrdən qurdbaşlı tanrı Luperkus) Romul və Rem adlı əkiz uşaqlar doğur. Reya Silviyanın əmisi, alban kralı Amelius əkizləri bir səbətə qoydurub Tibr çayına atdırır. Yəqin ki, o zamanlar Alban krallığında (İtaliya) Çində olduğu kimi körpələrin əi-ayağını kəsmək adəti yox imiş. Axının sahilə çıxartdığı səbəti bir dişi qurd və ağacdələn uşaqların tanrı atasının əmri ilə tapıb xilas edirlər. Qurd uşaqları Luperkal (qurd) mağarasına aparır və onları əmizdirir, ağacdələn isə qoruyur. Sonra əkizləri tapan bir çoban onları öz evinə apapır və onun arvadı Akka Lorensiya Romul və Remili digər on övladı ilə bir yerdə böyüdür. Bu on iki qardaş gələcəkdə Romanın əsasını qoyurlar.

Göründüyü kimi, romalıların etrusklardan (arsinalardan) əxz etdiyi bu əfsanədə də xalqın əcdadı kimi Qurd (burada Mars və ya onun ipostazı Qurd başlı Luperkus) göstərilir. Onu Çin salnaməsindəki əhvalatdan fərqləndirən əsas cəhət odur ki, burada doğuran fövqəlqüvvə erkək Qurd-tanrıdır, dişi Qurd yalnız əmizdirmə və qoruma funksiyası daşıyır. Çin salnaməsindəki əfsanədə isə Dişi Qurd xilas etdiyi oğlandan on uşaq doğur, amma məntiqlə 12 olmalıydı.

Türk xalqlarının buna bənzər başqa bir əfsanəsi də var. Uyğurların qələmə aldığı bir əfsanədə Hun prinsesi Qurddan və ya Qurd başlı tanrıdan uşaq doğur, bu uşaq da böyüyüb türk xalqının əsasını qoyur, burada da qurd-tanrı Roma əfsanəsində olduğ kimi erkək funksiyası daşıyır.

Romada da, Çində də, Uyğur xanlığında da qələmə alınan bu əfsanələrin daha qədim bir mənbədən gəldiyi şübhəsizdir. Təəssüf ki, bu gün əlimizdə “xilasçı qurdla” bağlı etrusk əfsanəsi də yoxdur, hekayətin yazılı mənbələrdə bizə çatan nümunələri etrusk mifinin əsrlər sonra qələmə alınan latınlaşmış variantlarıdır. Kökləri tarixin dərinliklərinə uzanan qurd mifinin izlərinə biz pelasqlarla bağlı məlumatlarda da rast gəlirik, yəqin ki, əfsanə təşəkkül tapdığı dövrdə köçəri cəmiyyətdə Qurd başlı tanrı kultu əhəmiyyətli rol oynayırdı və arsena etnonimi ona şamil olunan epitetlərdən biri də ola bilərdi. Çin salnamələrində isə, bu etnonim Aşina şəklində qələmə alınıb, çünki Çin heroqlifləri “r” səsini ifadə etmir.

Aşina etimologiyası ilə bağlı bir sıra tanınmış türkoloqlar tərəfindən mülahizələr söylənilib. P. Budberq Aşinanı türk kökənli “aş” - aşmaq, dağı aşmaq feili ilə ələqələndirir. S. Klyaştorny isə adəti üzrə türklərə dair bütün nailiyyətlərdə olduğu kimi, “aşina” sözünün etimologiyasının kökünü də İran dillərində axtarır, onun xotan mənşəli “asana” - mötəbər mənasını verdiyini qeyd edir.

*Rus-Sovet tarixçisi Lev Qumilyov isə bu etnonimin qurd mənası verən monqol sözü “şono” dan yarandığını və onun əvvəlinə Çin dilində ehtiram bildirən “a” suffiksinin artırıldığını ehtimal edir, Aşinanın mötəbər qurd mənasını verdiyini bildirir. Qədim türklər qurdu buri, börü və kaşğır adlandırırdılar və bu gün də əksər türk xalqları onu belə adlandırırlar. Çingizxanın mənsub olduğu boy da borçigin\borüçiqin, yəni börütəkin adlanıb və bu soyun Göy Qurdun soyundan olması ilə bağlı əvsanə Rəşidəddin tərəfindən qələmə alınıb. L. Qumilyov dillərində börü və kasqır sözləri olan, Qurdu özlərinə əcdad hesab edən türklərin nədən ona monqol adı qoyduqlarını izah edə bilmir. Qumilyovun börü mənası verən Şono sözünə Çin suffiksi artırması isə bir elmi müəmmadır?*







Aşina boyunun rəhbərlik etdiyi Türklər özlərini dişi qurdun nəslindən hesab edirdilər və onların bayraqlarına “altın qurd baş” ı həkk olunmuşdu.34 Çin mənbələri “türk xanı” və “qurd” məfhumlarını sinonim kimi işlədirlər və türk döyüşçülərini fuli - türkcə börü adlandırırdılar.

Öncə qeyd etdiyimiz kimi, Aşina kəlməsinin etimologiyasını araşdıran amerika alimi K. Bekvis VI əsr Vizantiya müəllifi Menandr Protektorun belə bir məlumatını sitat gətirir: “Türklərin qocaman mütləqi-hakimi Arsila adlandırılır”. Berkvis bu məlumatdan çıxış edərək, türk xaqanlarının və hakim zümrəsinin soy adı Arsilanın və Çin mənbələrindən transkripsiya olunan Aşinanın eyni anlam verdiyini bildirir.

Bizim mülahizəmizə görə, Arsena-Asina məvhumu qədim türk mənşəli Arsıl+ena tərkiblərindən yarana bilərdi. Müasir qazax dilində arsılqurda, itə, ümumən vəhşi heyvana şamil olunan ucadan hürmək, ulamaq, mırıldamaq mənasını verir. Qədim zamanlarda isə qurda söylənilən epitet ola bilərdi, arsıl - ərsayaq, hünərli. Sonralar İslam və İran mədəniyyətinin dominantlığı dövründə bu epitet arslana (farsca şir, latınca leo) şamil olundu. Arslan sözü də arsıl+an tərkiblərindən ibarətdir və bu gün arsıl-hünərli, an-heyvan kimi izah edilir, yəni “hünərli heyvan”.

Digər ehtimalla Xilasçı Qurd əfsanəsi prototürklər tərəfindən hələ Ön Asiyada yaşadığı dövrdə yaradılıb, oradan Uzaq Şərqə də, Apennin yarımadasına da köç edərək əfsanəni həm şərqdə, həm də qərbdə yayılmasına səbəb olmuşlar. “Ars”, “ers”, “ərş” bir çox semit dillərində səma, göy, məcazi mənada “tanrılar səltənəti” mənasını bildirir. Arsenna isə Ars + an - səmavi varlıq mənasını verir. F. Ağasıoğlu bir çox rəsmlərdə üçbaşlı qurd kimi təsvir olunan romalıların savaş tanrısı Mars (Maris, Mari) etnoniminin buri sözündən yarandığını guman edir. Biz romalıların Lupark adlandırdığı və şərəfinə Lupakali bayramları keçirdikləri tanrının etrusk adını da bilmirik. Bəlkə də Arsena etimologiyası bu tanrıyla bağlıdır, yoxsa etrusk ali kahinləri dini mərasimləri qurd görkəmində keçirməzdilər.

Qədim türklər kimi Etrusklar da qurdu müqəddəs saymış və onu özlərinə totem bilmiş, şərəfinə heykəllər ucaltmışlar. Etrusk rəsmlərində və freskalarında tanrı Ayta qurdbaşlı təsvir olunur. Etrusk kahinləri lukumonlar mərasimlərdə qurdbaşlı papaq qoyurlar. Bu, Qurda olan inancın çox qədimi olduğunu ehtimal etməyə əsas verir. Qurd kultu qədim Ay və Ana Kaha-Ana Mağara kultu ilə bağlıdır və bu kultda Qurdbaşlı tanrı obrazı mühüm yer tutub, biz irəlidə hələ bu barədə söz açacağıq. Həm romalılar, həm də çinlilər tərəfindən qələmə alınan əhvalatlarda Xilasçı Qurd uşağı mağaraya gətirir.

*Ola bilər ki, həm etrusklaрın, həm də qədim hunların və türklərin söykənliyi daha qədim bir əfsanə var və o müxtəlif zamanlarda, müxtəlif məkanlarda müəyyən dəyişmələrə uğrayır və bu əfsanədə qurd və mağara obrazları mühüm rol oynayır. Bu əfsanənin izlərinə biz uyğur əlifbası ilə qələmə alınmış “Oğuz kağan” adlı bir mətndə də rast gəlirik. Bu mətndə türklərin əcdadı olan Oğuzu Ay kağanın (Ay Atanın) doğurduğu qeyd olunur. Bir gün isə Oğuz Kağanın çadırına səma işığı şəklində gələn Qurd onun ordusuna Rum səfərində kılavuzluq (öndərlik) edəcəyini bildirir. Rum Romadır, Oğuzu isə əksər türkoloqlar e. ə II–III əsrlə yaşamış Hun hökmdarı Mode ilə eyniləşdirirlər. (A. Bernştam, İ. Biçurin, M. Kazımbek). F. Hirt Mode-Mete adının götürüldüyü Mao-Tun heroqlifinin transkripsiyasını baqatur kimi də oxuyur və A. Bernştam Modenin əslində Oğuz baqatur kimi oxunmalı olduğunu bildirir.*

(ardı gələn sayımızda)

***Yazılı mətnlərdə romalıların etrusklardan əxz etdiyi və Çin salnamələri “Bey şu” və “Suy şu” da verilən əhvalata bənzəyən əfsanənin müxtəlif variantları Roma salnamələrində də öz əksini tapıb. (məs. Titus Livius. “Ab urbe condita”, I, 6). Roma əhvalatının mahiyyəti odur ki, troyalı Eneyin nəslindən olan Reya Silvia savaş tanrısı Marsdan (bəzi mənbələrdən qurdbaşlı tanrı Luperkus) Romul və Rem adlı əkiz uşaqlar doğur. Reya Silviyanın əmisi, alban kralı Amelius əkizləri bir səbətə qoydurub Tibr çayına atdırır. Yəqin ki, o zamanlar Alban krallığında (İtaliya) Çində olduğu kimi körpələrin əi-ayağını kəsmək adəti yox imiş. Axının sahilə çıxartdığı səbəti bir dişi qurd və ağacdələn uşaqların tanrı atasının əmri ilə tapıb xilas edirlər. Qurd uşaqları Luperkal (qurd) mağarasına aparır və onları əmizdirir, ağacdələn isə qoruyur. Sonra əkizləri tapan bir çoban onları öz evinə apapır və onun arvadı Akka Lorensiya Romul və Remili digər on övladı ilə bir yerdə böyüdür. Bu on iki qardaş gələcəkdə Romanın əsasını qoyurlar...***

Oxu, oxut, abunə ol!